AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
BAKI DÖVLƏT UNİVERSİTETİ

AZƏRBAYCAN ŞİFAHİ XALQ ƏDƏBİYYATI KAFEDRASI

**MAGİSTR TƏHSİL PİLLƏSİ ÜÇÜN**

**İXTİSAS: 060201 FİLOLOGİYA**

**FƏNN: İF-M 2535 “FOLKLOR POETİKASI”**

**(II kurs)**

# PROQRAM

**BAKI - 2016**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**AZƏRBAYCAN ŞİFAHİ XALQ ƏDƏBİYYATI KAFEDRASI**

**MAGİSTR TƏHSİL PİLLƏSİ ÜÇÜN**

**İXTİSAS: 060201 FİLOLOGİYA**

**FƏNN: İF-M 2535 "FOLKLOR POETİKASI"**

**(II kurs)**

# PROQRAM

**BAKI - 2016**

**Tərtib edən:** İslamzadə Kəmalə Faiq qızı – Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının dosenti, filologiya elmləri namizədi

**Redaktor:** Orucova Səhər Hidayət qızı –Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının müdiri, professor, filologiya üzrə elmlər doktoru

**Rəyçilər:** İmanov Muxtar Kazım oğlu – AMEA Folklor İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü

Talıblı Etibar Əjdər oğlu – Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının dosenti, filologiya elmləri namizədi

***© “Bakı Universiteti” nəşriyyatı, 2016***

# İZAHAT VƏRƏQƏSİ

Yazılı ədəbiyyatdan bir sıra cəhətləri ilə fərqlənən folklor təbii ki, öz janrlarının poetik xüsusiyyətlərinin spesifikliyi ilə də seçilməlidir. Əvvəla, ağız ədəbiyyatı nümunələrinin bir çox xalq sənətkarlarının ifasında dəyişilə-dəyişilə günümüzə gəlib çatması onlarda bir fərdi üslubun deyil, müxtəlif dəst-xətlərin qovuşmasından yaranan rəngarəngliyin özünü göstərməsini labüd edir. Eyni nümunələrin fərqli variantları öz naməlum müəlliflərinin nəfəsindən başqa, həm də onun dünyagörüşünü, təfəkkür tərzini, fikirlərinin istiqamətini nümayiş etdirir. Folklor poetikasının spesifikliyini müəyyənləşdirən səbəblərdən biri xalq danışıq dili sintaksisinin özünəməxsusluğudur. Məlumdur ki, burada ədəbi dildən fərqli olaraq, cümlədə sabit söz sırasından bəhs edə bilmirik. Xalqın şifahi nitqində bu nizam pozulur və məntiqdən, hiss və emosiyaların səviyyəsindən asılı olaraq dəyişir. Bundan başqa, ayrı-ayrı bölgələrin leksikonunda işlənən dialekt sözlərinin, ləhcə əlamətlərinin də folklor örnəklərinə bir kolorit gətirməkdən başqa, müxtəlif poetik fiqurların, priyomların yaradılmasında yeni imkanlar açdığını da qeyd etməliyik. Folklor örnəklərinin ibtidai-mifoloji təsəvvürlərlə, qədim etiqad və ayinlərlə, müəyyən sosial məqsəd və əhəmiyyət daşıyan mərasimlərlə bağlılığı, həmçinin sinkretizm kimi vacib bir xüsusiyyəti folklor poetikasının spesifikliyini şərtləndirən amillər sırasındadır.

Folklorda əsərdən alınan estetik təəssüratın təmin olunmasında iştirak edən bədii ifadə və təsvir vasitələrindən bəziləri yazılı ədəbiyyatla müştərək olsa da, onların arasında sırf ağız ədəbiyyatına xas olanları da vardır.

Bütün bunlar folklor poetikasından xüsusi bəhs etməyin məntiqli və lazımlı olduğunu təsdiqləyir. Magistr təhsil pilləsinin II kursunda «Folklor poetikası» fənninin (şifri: İF-M2535) tədrisi də elə həmin zərurətdən doğmuşdur. Fənn 30 saat mühazirə, 15 saat məşğələ olmaqla semestr ərzində cəmi 45 saat həcmində tədris edilir.

Magistrantlar artıq bu mərhələdə poetikanın sahələrini, onun tarixi inkişaf pillələrini, əsas nümayəndələri haqqında məlumatları, folklorda üslub, obrazlılıq, ənənəvilik, süjet, kompozisiya, təhkiyə, improvizasiya, zaman, məkan və s. anlayışları bilməli-

dirlər. Çünki folklorşünas kimi ixtisaslaşan bu tələbələr üçün seçdikləri elmi istiqamətin nəzəriyyəsini bilmək vacibdir.

Kursun tədrisində əsas məqsədlərdən biri tələbələrdə müəyyən bacarıqların formalaşdırılmasına nail olmaqdır. Onlar folklor mətnlərində kontaminasiya və retardasiya priyomlarını, təhkiyəçi nitqindəki stereotipliyi, sinkretizmin hansı səviyyədə özünü göstərdiyini müəyyənləşdirməyi bacarmalıdırlar. Təbii ki, bunlara mənimsənilmiş nəzəri bilikləri konkret ağız ədəbiyyatı nümunəsinə tətbiq etməklə çatmaq mümkündür. Məsələn, kontaminasiya nəticəsində yaradılmış nağılda təhkiyəçinin birləşdirdiyi fərqli nağıl süjetlərini ayırmağı, mətndə hadisələrin üç dəfə təkrarını ehtiva edən retardasiya üsulunu izləməyi, süjetin ləngidilməsinin digər metodlarını aşkar etməyi tələbələr bacarmalıdırlar.

Folklorşünaslıq üzrə ixtisaslaşan hər bir magistr xalq yaradıcılığının lirik, epik və dramatik üslubuna aid bütün janrlarında olan bədii təsvir, ifadə vasitələrini, estetik təəssürat yaradan poetik fiqurları mətndən seçib təyin etmək vərdişlərinə yiyələnməlidir.

Bu kursun qarşısında qoyulan məqsədlərə çatmaq üçün ənənəvi metodlarla yeni tədris üsullarının birləşdirilməsi şərtdir. Ənənəvi təlim metodlarına müəllimin mühazirə mətnlərini, məqalə, monoqrafiya və dissertasiyalardan ibarət olan elmi ədəbiyyatı, həmçinin ayrı-ayrı folklor nümunələrinin toplandığı antologiyaları, ekspedisiya materiallarını aid edə bilərik. Müasir texniki avadanlıqlardan istifadə etməklə nümayiş olunan slaydlar isə nisbətən yeni metodlardandır və tədris prosesinin keyfiyyətini artırır. Burada vizual yaddaş amili nəzərə alınır. Slaydlarda poetikanın sahələrini və onların spesifik xüsusiyyətlərini əks etdirən sxemlər, bu elmi istiqamətin yaranması və inkişafında rolu olmuş alimlərin fotoları, mətnlərin poetik baxımdan təhlilini nümayiş etdirən örnəklər yerləşdirilə bilər.

«Folklor poetikası» fənninin (İF-M2535) təqdim olunan proqramında müasir dövrümüzdə tədris qarşısında qoyulan, təlimin keyfiyyətini artırmağa yönəlmiş tələblər nəzərə alınmışdır.

Kursu başa vuran tələbələrin dünyagörüşü aşağıdakı yeni elementlərlə zənginləşəcəkdir:

a) poetikanın sahələri – ümumi, xüsusi və tarixi poetika haqqında məlumatlar;

b) «fonika», «ritmika», «metrika», «strofika», «stilistika», «topika», «tematika» kimi yeni terminlərlə, onların mənası ilə tanışlıq;

c) poetika ilə bağlı Aristotel, Horatsi, Bualo, Şlegel qardaşları, F.Şellinq, A.N.Veselovski, A.A.Potebnya, V.Y.Propp, R.O.Yakobson, Y.N.Tınyanov və başqalarının araşdırmaları barədə informasiya;

ç) Azərbaycanda poetika istiqamətində aparılan tədqiqatlara dair təfərrüatlar;

d) poeziyanın mənşəyinin mərasimlərə gedib çıxması ilə bağlı faktlar;

e) təhkiyənin qurulmasında iştirak edən mühüm elementlər, onların funksiyaları barədə yeni biliklər.

Proqramda fənlərarası əlaqənin gözlənilməsi tələbinə riayət edilmişdir. Burada tələbələrin bakalavr təhsil pilləsində keçdikləri «Azərbaycan şifahi xalq ədəbiyyatı», «Ədəbiyyat nəzəriyyəsi», «Azərbaycan dastanları», magistr pilləsində öyrəndikləri «Azərbaycan mif, əfsanə, rəvayət və lətifələri», «Azərbaycan xalq poeziyasında yeddi hecalı şeir şəkli», «Mərasim və uşaq folkloru» fənlərindən əldə etdikləri biliklərin bazasına əsaslanılmışdır. Məsələn, «Ədəbiyyat nəzəriyyəsi» fənnindən «poetika» termini, Aristotelin eyniadlı əsəri ilə tanış olan tələbə «Folklor poetikası» kursunu keçərkən «poetika»nın dar və geniş mənalarını, makropoetika, mikropoetika və xüsusi poetika anlayışlarını, təsviri və normativ poetika istilahlarını mənimsəyərək öz biliklərini daha da genişləndirir. Yaxud «Azərbaycan dastanları fənnindən bu janrın xüsusiyyətlərini öyrənən tələbə «Folklor poetikası» kursunu dinləyərkən bu epik nümunələrin poetik struktur sistemi ilə tanış olur. Eləcə də bu əlaqələri bütün mövzular üzrə izləmək mümkündür.

Tədris prosesini tələbələr üçün maraqlı və yaddaqalan etməkdən ötrü müəyyən resursların cəlb olunması zəruridir. Buraya mövzu ilə bağlı maarifləndirici televiziya tədris proqramlarının yazıldığı disklər, slaydların nümayişi üçün lazım olan texniki avadanlıqlar aiddir.

«Folklor poetikası» fənninin təqdim edilən proqramında mühazirə mövzuları, onların hər birinin əhatə etdiyi məsələlərin tezisləri, həmçinin sərbəst işlərin mövzuları öz əksini tapmışdır. Proqramda eləcə də folklor poetikası ilə bağlı Azərbaycan və rus müəlliflərinin əsərlərindən ibarət nəzəri ədəbiyyat, bu sahədəki son tədqiqatlar diqqətə çatdırılmışdır.

## Mövzular üzrə saatların bölgüsü

| № | Mövzular | Saatların miqdarı | O cümlədən | |
|---|---|---|---|---|
| | | Cəmi | mühazirə | məşğələ |
| 1 | Poetika haqqında ümumi məlumat | 3 | 2 | 1 |
| 2 | Poetikanın tarixindən. Azərbaycanda poetika sahəsində aparılmış tədqiqatlar | 3 | 2 | 1 |
| 3 | Xalq poeziyasının mənşəyi | 3 | 2 | 1 |
| 4 | Folklorda süjet və kompozisiya | 3 | 2 | 1 |
| 5 | Folklorda üslub, obrazlılıq və ənənəvilik | 3 | 2 | 1 |
| 6 | Folklorda təhkiyə və improvizasiya | 3 | 2 | 1 |
| 7 | Folklorda zaman və məkan | 3 | 2 | 1 |
| 8 | Folklorda kontaminasiya və retardasiya | 3 | 2 | 1 |
| 9 | Şifahi sözün sinxron və diaxron quruluşu. Nitq müxtəlifliyi (stereotiplik) | 3 | 2 | 1 |
| 10 | Folklorda silsilələşmə və sinkretizm | 3 | 2 | 1 |
| 11 | Lirik növün janrlarının poetikası | 3 | 2 | 1 |
| 12 | Mif, atalar sözləri, məsəllər və lətifələrin poetikası | 3 | 2 | 1 |
| 13 | Azərbaycan nağıllarının poetikası | 3 | 2 | 1 |
| 14 | Qəhrəmanlıq dastanlarının poetikası | 3 | 2 | 1 |

| | | | | |
|---|---|---|---|---|
| 15 | Məhəbbət dastanlarının poetikası | 3 | 2 | 1 |
| **Cəmi:** | | **45** | **30** | **15** |

## I mövzu: Poetika haqqında ümumi məlumat – 2 saat

Poetika bədii əsərlərdə ifadə vasitələri sistemi haqqında elm və ədəbiyyatşünaslığın qədim fənlərindən biri kimi. «Poetika» istilahının iki mənada – dar və geniş mənada işlənməsi. Poetikanın məqsədi: əsərdən alınan təəssüratın formalaşmasında iştirak edən elementlərin mətndən seçilib sistemləşdirilməsi. Normativ və təsviri poetika anlayışları. Normativ poetika – poetik sistemin həmin mədəniyyətin daxilindən tədqiqi kimi. Xaricdən, kənardan, yad mədəniyyətin nümayəndəsi tərəfindən tədqiqin təsviri poetikanın təşəkkülünə gətirib çıxarması.

Poetikanın sahələri: ümumi (makropoetika), xüsusi (mikropoetika) və tarixi poetika. Onların predmeti və məqsədi. Ümumi poetikanın mətnin səs, söz və obraz quruluşunu öyrənən üç sahəyə ayrılması. «Fonika», «ritmika», «metrika», «strofika», «stilistika», «topika», «tematika» anlayışlarının şərhi.

Kompozisiya– xüsusi poetikanın əsas problemi kimi. Xüsusi poetikanın əsasını ayrı-ayrı əsərlərin təhlilinin təşkil etməsi.

Tarixi poetikanın ayrı-ayrı poetik priyomların və onların sistemlərinin təkamülünü tarixi-müqayisəli ədəbiyyatşünaslığın köməyi ilə öyrənməsi. Ədəbi növ və janrların sərhədlərinin dəyişməsi tarixinin izlənilməsi. Şifahi ədəbiyyat – tarixi poetikanın əsas materialı kimi. Folklor poetikasının spesifikası.

[30], [31]

## II mövzu: Poetikanın tarixindən. Azərbaycanda poetika sahəsində aparılmış tədqiqatlar – 2 saat

Poetikanın yaranıb təşəkkül tapması və təkamülünün xronologiyası. Aristotel – poetikanın ilk sistemli şərhini vermiş alim kimi. Onun yunan ədəbiyyatı nümunələrinin quruluşunun bəzi prinsiplərini katarsis nəzəriyyəsi baxımından dəyərləndirməsi. Aristotelin təqlid (mimesis) barədə təlimi. Aristotel ədəbi janrlar və üslublar barədə. Onun faciə və eposla bağlı konsepsiyası. Aristotel ənənələrinin Horatsi tərəfindən normativ poetikada və

Bualo tərəfindən Avropa poetikasında inkişaf etdirilməsi.

Depreo Nikola Bualonun (1636-1711) «Poeziya sənəti» poemasında (1674) fransız klassisizminin əsas estetik prinsiplərinin verilməsi. Onun rasional ümumiləşdirməni dərketmənin yeganə düzgün metodu sayması. «Təbiəti təqlid» prinsiplərinin şərhi. Bualonun janrları «yüksək» (faciə, epopeya) və «alçaq» (komediya, roman) kimi iki yerə ayırması.

Qədim Hindistanda incəsənətin əhvali-ruhiyyəyə təsirinin (rasa), onun əsas qıcıqlandırıcıları və simptomlarının tədqiqi («Bharatiyanatyaşastra» və poetikaya dair sonrakı traktatlar). Qədim hind poetikası poetik sözün müxtəlif funksiyaları haqqında.

Alman klassik fəlsəfəsi poetik növlər barədə (A. və F. Şlegel qardaşları, F.Şellinq). Hegel tərəfindən incəsənətin müxtəlif tarixi formalarının təsnifatının verilməsi.

XIX əsrdə A.N.Veselovskinin əsərlərində tarixi poetikanın inkişaf etdirilməsi. A.A.Potebnyanın poetikanı linqvistika və mifologiya ilə sıx əlaqədə nəzərdən keçirməsi. Rus formal poetika məktəbi. Moskva və Petroqradda poetik dili öyrənən cəmiyyətlər tərəfindən struktur poetikanın əsas istiqamətlərinin işlənib hazırlanması. Onların Praqa linqvistik dərnəyi vasitəsi ilə dünya ədəbiyyatşünaslığına öz təsirini göstərməsi (Vellek və Uorrenin «Yeni tənqid» əsəri, «Tel Qud» qrupu və s.). Poetik dili öyrənən cəmiyyətin üzvlərinin (R.O.Yakobson, Y.N.Tınyanov, B.M.Eyxenbaum, V.B.Şklovski, Y.D.Polivanov və b.) əsərlərində şeir sırası sıxlığı, süjet qurmaq prinsipləri və təsviri poetikanın başqa problemləri haqqında.

V.Y.Proppun nağılların mifologiyasına dair əsərlərində ilk dəfə əsas funksiyaların sxemlərinin şərh edilməsi.

Azərbaycanda folklor poetikası istiqamətində aparılmış tədqiqatlar. Bu sahədə Ə.Abid, H.Zeynallı, M.Ələkbərli, Ə.Nəzmi, A.Nəbiyev, Q.Paşayev, B.Abdulla, N.Cəfərov, H.İsmayılov, M.Qasımlı, M.Kazımoğlu, M.Cəfərli, A.Hacılı, Ş.Alışanlı, K.Hüseynoğlu, S.Rzasoy, A.Xəlil, O.Əliyev və başqalarının xidmətləri.

[2], [4], [5], [30], [37].

**III mövzu: Xalq poeziyasının mənşəyi – 2 saat**

Xalq poeziyasının öz mənşəyini mərasimlərdən alması. İlk şeirlərin müəyyən məqsədlərlə mərasimlərdə ifa olunması. Vaxtilə utilitar xarakterli mərasimin sinkretizmində birləşən şairlik, bəstəçilik, instrumental ifaçılıq, rəqqaslıq və s. sənətlərin sonradan ayrılaraq müstəqil şəkildə fəaliyyət göstərməyə başlaması. Mədəniyyət tarixinin erkən mərhələlərində musiqi, poeziya və rəqsin qırılmaz əlaqəsi ideyasını ilk dəfə ingilis maarifçisi Con Braunun öz traktatında nəzəri cəhətdən əsaslandırması («Poeziya və musiqi, onların yaranması, birliyi və qüdrəti, həmçinin onların inkişafı, ayrılması və pozulması haqqında düşüncələr» - 1763).

Türk şeirinin ən qədim nümunələrindən sayılan uyğur poetik mətnlərində (VIII-X əsrlər) sətirləri bir-biri ilə əlaqələndirən bədii vasitə kimi alliterasiyadan geniş istifadə. Orxon mətnlərində sistemsiz şəkildə işlənən alliterasiya, qrammatik qafiyə və paralellik hadisəsi. İlkin poetik nümunələrin yaranmasında inam və etiqadların rolu.

Heca vəznli Azərbaycan şeirinin ritm vasitələri – misra sonluqlarının səs uyuşması, qafiyə, intonasiya, müxtəlif növ təkrarlar. Misralarda heca bərabərliyi ənənəsi. Qafiyənin poetik funksiyası. Xalq şeirlərində kompozisiya və durğu. Mətn və melodiyanın sintezindən yaranan lirik mahnılar.

Poetik əsərlərdə misraların bir-birilə müəyyən qaydalar əsasında əlaqələnərək daha böyük ritm vahidi və kompozisiyası olan bənd qruplarını əmələ gətirməsi.

[2], [9], [20], [31], [37]

**IV mövzu: Folklorda süjet və kompozisiya – 2 saat**

Süjetin mövcudluğu epik janrların əsas əlaməti kimi. Süjet termininin etimologiyası. Fransız sözü olub, «əşya» mənasını verməsi. Əsərdə baş verən hadisələrin gedişatını, inkişafını ifadə etməsi. Süjetin motivlərdən təşkil olunması. Motiv istilahının latınca «moveo» («hərəkət etdirirəm») sözündən əmələ gəlməsi, A.N.Veselovskinin, V.Y.Proppun əsərlərində motivin mətnin ən kiçik vahidi, bölünməyən elementi

kimi izah olunması. Dünyanı səyahət edən beynəlxalq süjetlərin A.Aarne sistemində yerinin müəyyənləşdirilməsi.

Epik və dramatik əsərlərdə süjetin ictimai ziddiyyət və konfliktləri əks etdirən hadisələr sistemi kimi çıxış etməsi. Süjetin bitkinliyi, əsərdəki hadisələri idarə edən səbəb-nəticə əlaqələrinin ardıcıllığını göstərməsi.

Kompozisiya termininin latınca «Komposito» sözündən olub, «təşkiletmə», «birləşdirmə» mənasını verməsi. Bədii formanın komponentlərinin yerləşdirilməsini və bir-birinə münasibətini ifadə etməsi. Əsərin məzmunu və janrı ilə şərtlənən quruluşu olması. Kompozisiyanın qanunları estetik ideyanın nəticəsi kimi. Onların reallığın dərin qarşılıqlı əlaqələrini əks etdirməsi. Kompozisiyanın tərkib hissələri.

[30], [37].

**V mövzu: Folklorda üslub, obrazlılıq və ənənəvilik – 2 saat**

Üslub deyərkən hər bir informatorun, improvizatorun fərdi ifa tərzinin, leksikasının, repertuarının individuallığının nəzərdə tutulması. Hər hansı bir nümunənin struktur əlamətlərini, süjetini qorumaqla ifaçının dilində yeni əlamətlərlə, poetik vasitələrlə zənginləşməsi. Söyləyicilərin üslubundan asılı olaraq ciddi, yaxud məzəli ifa tərzinə malik olması. Başlanğıc, keçid və final formullarına, təkrarlamələrə əlavələr etməklə hər bir improvizatorun onları öz üslubuna uyğun dəyişə bilməsi.

Obrazın estetikanın kateqoriyası olub, yalnız incəsənətə məxsus gerçəkliyi mənimsəyərək dəyişdirməyi xarakterizə etməsi. Bədii obrazda obyektiv dərk olunan və subyektiv yaradıcılıq başlanğıclarının birləşdirilməsi. Obrazın spesifikliyinin onun iki sferaya – real gerçəkliyə və təfəkkür prosesinə münasibəti əsasında müəyyənləşdirilməsi.

Ənənəviliyin ədəbiyyatda varisliyi xarakterizə edən bir anlayış olması. İfaçı tərəfindən ötən dövrlərin mədəni, bədii təcrübəsinin aktual və daim dəyərli olan bir yol kimi əxz edilməsi. Ənənənin dövrlərin əlaqəsini həyata keçirməsi. Tarixi tabeliliyə malik olan ənənələrin həm də funksional dəyişikliklərə məruz

qala bilməsi.

[20], [26], [31].

### VI mövzu: Folklorda təhkiyə və improvizasiya – 2 saat

Epik ədəbi əsərdə müəllifin, nəqqalın nitqinin təhkiyə adlanması. Personajların vasitəsiz nitqi istisna olmaqla epik əsərin dilinin təhkiyə adlanması. Söyləyicinin sosial-ideoloji, milli mövqeyinin təhkiyənin xarakterinə təsir göstərməsi. Janrdan-janra təhkiyənin formasında, dinamikasında dəyişikliyin baş verməsi. Hadisələr həyatın adi, gündəlik axarını təsvir etdiyi zaman ona uyğun olaraq təhkiyənin də aramlı, təmkinli xarakter alması. Özündə qorxu, həyəcan və təqib elementləri daşıyan məqamların təsvirinin təhkiyənin dinamik, sürətli olmasını tələb etməsi. Bütün bunların həmin hislərin dinləyiciyə sirayət etməsi məqsədini daşıması.

İmprovizasiya termininin «qəfil», «gözlənilməz» mənalarına uyğun gəlməsi. Yaradıcılığın xüsusi növü olması. Bu zaman yaradıcılıq aktının bilavasitə əsərin ifası prosesində baş verməsi. Folklor nümunələri üzərində iş aparmaqda improvizatorun heç də tam azad olmaması. Hər bir janrın ənənəvi strukturunun, qəliblərinin, hazır formullarının, süjet sxemlərinin, ümumiyyətlə, folklorun yazılmamış qanunlarının improvizatoru müəyyən çərçivə daxilində fəaliyyət göstərməyə məcbur etməsi.

[26], [31].

### VII mövzu: Folklorda zaman və məkan – 2 saat

Nəzəri ədəbiyyatda bədii üslubun obrazın zaman və məkan əlamətlərinə uyğunluğu barədə müddəa. Hər bir obrazın öz zaman və məkan xüsusiyyətləri ilə mövcudluğu.

«Xronotoplar nəzəriyyəsi»ndə zamanla məkanın vəhdətdə götürülməsi. İlk dəfə Eynşteynin işlətdiyi termini bədii yaradıcılığa M.M.Baxtinin tətbiq etməsi. İnsanın metaforik düşüncəsində zaman və məkan əlamətlərinin iki halda bir-birini tamamlaması: 1) insanın iradəsindən asılı olmayaraq zamanın yığ-

camlaşdırılması, bədii görüntülü olması, məkanın isə intensivləşməsi, zamanı hərəkətə gətirməsi, süjetin, hadisənin inkişafı ilə genişlənməsi. Zamanın əlamətlərinin məkanla açıqlanması, məkanın isə zamanın ölçülməsi ilə dərk olunması; 2) zaman və məkanın insanların özləri tərəfindən düşünülmüş şəkildə birləşdirilməsi.

Zaman və məkan vəhdətinin mifoloji görüşlərdə əks olunması. Zaman və məkanın nağılda uydurmanın məqsədlərinə uyğun təsvir edilməsi. Təsviri üslubda nitqlərin indiki zamanda, hadisə və fəaliyyətlərin isə keçmiş zamanda baş verməsi. Məkanın bəlli, lakin qeyri-dəqiq olması, bəzən sakral zaman anlayışının ortaya çıxması. Ənənəvi nağıl və dastan formullarında zaman və məkan anlayışlarının ehtiva edilməsi. Folklorda kortəbii realistik istiqamətdə keçmiş və indinin dəqiq ayrılması. Gələcəyin qarşısıalınmaz, qaçılmaz hərəkət kimi başa düşülməsi.

[23], [26].

**VIII mövzu: Folklorda kontaminasiya və retardasiya– 2 saat**

Kontaminasiyanın nağıllarda yaradıcılıq üsulu olması. Digər nağıllardakı ayrı-ayrı motivlərin süjetə daxil edilməsi, yaxud bir neçə süjetin bir nağılda cəmləşməsi.

N.M.Vedernikovanın tədqiqatları. Kontaminasiya söyləyicinin yaradıcılıq potensialını aşkarlamağa imkan verən hadisə və folklorda ənənəviliyin yaradılmasında mühüm ədəbi vasitə kimi. Yeni elementlərin, epizodların nağıla daxil edilməsi, ənənəvi obrazların orijinal təqdimatı. Nağılçının hamıya məlum olan yerli materiallar əsasında yeni bir əsər ortaya çıxarması. Burada improvizasiyanın rolu.

Retardasiya – (latınca retardatio – yavaşıma, ləngimə, gecikmə) epik janrlara xas olan süjet-kompozisiya priyomu kimi. Süjetdəki fəaliyyətin inkişafının ləngidilməsi. Onun müxtəlif yolları (yazılı ədəbiyyatda: təfərrüatlı təbiət təsvirləri, interyer və portretlərin təsvirləri, lirik haşiyələr və s. süjetə birbaşa aid olmayan komponentlərin tətbiqi).

Folklorda retardasiyanın üçləmə hadisəsində özünü

göstərməsi. Eyni epizod və ya hərəkətin nağıllarda müəyyən əlavə və dəyişikliklərlə təkrarı.

[10], [26], [35].

**IX mövzu: Şifahi sözün sinxron və diaxron quruluşu. Nitq müxtəlifliyi (stereotiplik) – 2 saat**

Bu anlayışların «eyni zamanda» və «zamanın içindən» mənalarına uyğun gəlməsi. Filologiya və semiotikaya F.de Sossür tərəfindən gətirilməsi. Bunların dilin dərk edilməsi və öyrənilməsinə struktur və tarixi yanaşmaların güzəştsiz qarşıdurmasını ifadə etməsi. Praqa linqvistik dərnəyinin bu anlayışları yaxınlaşdırmağa çağırması. K.Levi – Stross və V.Y.Propp arasındakı məhsuldar polemikanın nəticələri.

Məişət nitqi ilə bədii nitqin fərqləndirilməsi. B.V.Tomaşevskiyə görə, məişət nitqinin məlumatların ötürülməsi vasitəsi rolunu oynaması. Burada ifadələrin quruluşunda və seçilməsində nisbi azadlığa və sərbəstliyə yol verilməsi. Bədii nitqin əksinə, başdan-başa qeydə alınmış ifadələrdən ibarət olması. Burada sözlərin seçilməsi, yerləşməsi və ardıcıllığının mühüm olması. Obyektlə onu ifadə edən sözlər arasında identifikasiyanın dilin kommunikativ funksiyasını təmin etməsi. Bədii nitqdə hamı tərəfindən qəbul edilmiş mənanın qeyri-adi hiss, təsəvvür və anlayışlar kompleksi ilə zənginləşərək yenilənməsi. Söz sənətinin ifadə mədəniyyətindən ayrılmaz olması.

[9], [26], [31], [37].

**X mövzu: Folklorda silsilələşmə və sinkretizm – 2 saat**

Silsilə — janr, mövzu, ideya və personajların ümumiliyi prinsipi üzrə birləşdirilməsi kimi. Silsiləyə daxil olan hər bir əsərin müstəqil bədii vahid kimi ayrıca mövcud ola bilməsi. Lakin silsilədən çıxdıqda əsərin öz estetik əhəmiyyətini itirməsi. Silsilənin strukturunun bədii mənanı inkişaf etdirmək üçün geniş imkanlara malik olması və müxtəlif quruluş prinsiplərini ehtiva etməsi. «Manas» silsiləsinin 3 nəslin – Manasın, oğlu Semeteyin, nəvəsi Seytekin ömrü fonunda qırğız məişətinin geniş epik mən-

zərəsini, tarixi hadisələr fonunda isə xalq taleyini canlandırması.

Sinkretizm bir neçə sənətin bir sənət növündə birləşməsi kimi. Platonun «Qanunlar» əsərində, Lukianın «Rəqs haqqında» traktatında poeziya, musiqi və rəqsin ilkin birgəliyinə diqqət yetirilməsi. Qədim dünya estetikasında incəsənətin sinkretik növlərinə uyğun terminlərin mövcud olması: Yunanıstanda «xoreya», Hindistanda «sangita», Çində «yue». Sinkretizmin qədim dövrlər üçün aktual olub sonralar aradan çıxması və hazırda yalnız folklorda qorunub saxlanması. Janrlararası, janrdaxili, ideya, təfəkkür və funksional səviyyələrdə özünü göstərən sinkretizm. Sinkretizm folklor və folklorşünaslığın müstəqilliyi problemi üzərinə işıq salan bir məsələ kimi.

[2], [13], [20], [21], [26], [30].

**XI mövzu: Lirik növün janrlarının poetikası – 2 saat**

Yeddilik şeir qəlibinin yaranması. Bayatının struktur xüsusiyyətləri. İlk iki misranın əsas ideyaya dəxli olmadığı barədə səhv fikir. Bayatının bütün misralarının bir bütövü, bir monoliti təşkil etməsi. Bayatılarda gül, bülbül, dağ, qərib obrazlarının simvolikası. Bayatılarda bölgülər, assonans, cinaslar, təşbeh, epitet, metafora. Bayatılarda müəllif obrazı və lirik qəhrəman. Daxili dialoq, kənarla dialoq. Bayatılarda müraciətlər. Qafiyə növləri: tam, yarımçıq, dəqiq, nisbi, sadə və mürəkkəb. Bayatılarda bədii sual.

Aşıq şeirinin poetik özəllikləri. Ritm, melodiya ilə türk dillərinin fonetik təbiətini, musiqililiyini əks etdirən şeir şəkilləri: gəraylı, qoşma, təcnis, müxəmməs, divani və s. Aşıq şeirinin şəkillərində ritm vasitələri: durğu, qafiyə, alliterasiya, vurğu, assonans, paralelizm və intonasiya. Azərbaycan poeziyasında ritm vasitələrinin emosional ifadə cəhətləri və daxili məzmunla üzvi əlaqəsi. Cinasların növləri. Anafora, epifora və təkririn digər tipləri. Ritmik vahidlərin uyğunluğu, sintaktik formaların oxşarlığı. Yeni şəkillərin və törəmələrin yaradılmasında poetik priyomların rolu (cığa, ayaq, daxili qafiyə və s.).

[2], [9], [13], [14], [18], [20].

### XII mövzu: Mif, atalar sözləri, məsəllər və lətifələrin poetikası – 2 saat

Mifin bir tərəfdən təhkiyə mətni, ikinci bir tərəfdən dünya haqqında təsəvvürlər sistemi, dünyagörüşü olması. Şüurda modelləşən dünyanın sonradan işarələr sistemində modelləşməsi. Mifin həmişə hər hansı bir hadisəni izah etməyə çalışması və onun əsasında heç bir tarixi hadisənin durmaması. Mifin cəmiyyətin sosial həyatını və təbiət ilə qarşılıqlı münasibətlərini nizamlaması. Mətndəki obrazın həm əşyanın özü, həm də işarəsi olması. Mifoloji şüurda dünyanın konkret-hissi, maddi-formal tərəfdən qavranılması. Əsatir çağında sözlə onun bildirdiyi obyekt arasında köklü fərqin duyulmaması. Mifoloji mətnin başqa janrlardan süjet məhdudluğuna, hadisələrin zaman və məkan xarakteristikasına görə seçilməsi. Bədii söz sənətkarlığının mətnin funksional səciyyəsində çox az yer tutması. Mətnin fərdi və ya kollektiv yaradıcılıq örnəyi (bədii uydurma) kimi deyil, məhz nə vaxtsa həqiqətən baş vermiş presedent (gerçək hadisə) kimi qavranılması. Bu tipli mətnlərin başlıca funksiyasının etnos üçün davranış stereotipinin ifadəsi olması. Onların konkret sosial birliklərin həyatında proqramlaşdırma dili olması.

Atalar sözləri və məsəllərin özünəməxsus formada, vəzn və qafiyəyə malik olması. Atalar sözlərində ritm növləri. Söz yaradıcılığının bu janrında heca bərabərliyinin pozulması. Qədim atalar sözlərinin ritmik quruluşunda sətirönü alliterasiya mühüm ritm və kompozisiya vasitəsi kimi. Qədim atalar sözlərində paralellik. Sintaktik bütövlərin həm məna, həm də quruluş baxımından bir-birinə paralel şəkildə yerləşən hissələrdən yaranması. Atalar sözləri üçün xarakterik olan iki quruluş forması. Paremik vahidlərin tematikasının əks mənaların invariant cütü əsasında təhlili. İnvariant anlayışı, onun paremiologiyada tətbiqi. İnvariant və variant arasındakı münasibət. Atalar sözü və məsəllərin məntiqi tematik qruplara bölünməsi. Bu janrda fikrin müstəqim və ya məcazi məna daşımasından asılı olaraq mənanın birbaşa, yaxud obrazlı ifadəsinin təcəssümü. Atalar sözü və məsəllərdə metonimiya, metafora və digər bədii ifadə vasitələ-

rindən istifadə. Paremiyalarda çoxmənalılıq. Paremik omonimlik, sinonimlik və antonimlik. Atalar sözü və məsəllərin bədii xüsusiyyətləri.

Lətifələrin əsas predmeti. Xalq lətifələrində üç ünsür – incə yumor, hikmətli kəlam və kəskin ironiya. Lətifə janrında konkretlik, yığcamlıq, az sözlə mənalı fikir söyləmək və məqsədəuyğun hərəkət. Təzad lətifə janrının meyarı kimi. Lətifələrdə zaman, məkan və subyekt qeyri-müəyyənliyi. Lətifələrdə tezis, antitezis və nəticənin yeri. Lətifələrdə yaranan və müstəqil şəkildə atalar sözləri və zərbi-məsəllər kimi işlənən aforizmlər. Lətifələrdə nəqli, sual, əmr, müxtəsər və yarımçıq cümlələr. Lətifələrdə mükalimə. Lətifələrdə xalq danışıq frazeologiyası - 2 saat.

[2], [11], [12], [15], [17], [23], [24], [32], [33], [34].

**XIII mövzu: Azərbaycan nağıllarının poetikası – 2**

Nağıl strukturunda funksiyaların yeri. Nağıl uydurma üzərində qurulan janr kimi. Təsnifat qrupundan asılı olaraq obrazların xarakterinin dəyişməsi. Sehrli nağıllarda – əfsanəvi-fantastik, heyvanlar haqqındakı nağıllarda insanları rəmzləşdirən alleqorik – heyvan, məişət nağıllarında real obrazların olması. Nağıllarda söz oyunundan istifadə, pişrovlar. Uzaq yolu, döyüşə hazırlığı, gözəlin, küpəgirən qarının, qalaçanın təsvirini ifadə edən qəliblərin nağıldan-nağıla keçməsi. Nağıllarda başlanğıc, medial və final formulları. Qəliblərin ənənəviliyi. Zaman və məkan anlayışlarının ifadə formaları. Nağıl zamanının qeyri-müəyyənliyi; illə yox, hadisələrlə hesablanması. Nağıl məkanının «öz»və «özgə» şahlığına ayrılması. Nağıl təhkiyəsində bənzətmə, mübaliğə, epitet və s. vasitələrdən istifadə. Bənzətmənin obrazların xarakterindən asılı olaraq təbiət və insan həyatındakı müxtəlif sahələri əhatə etməsi. Nağıllarda mübaliğəli təsvirin süjetin möcüzəli hadisələr üzərində qurulmasından irəli gəlməsi. Nağıllarda retardasiya və kontaminasiyadan yararlanma. Nağıl poetikasının zənginləşməsində söyləyici nəqqalların rolu.

[10], [16], [21], [22], [35], [36].

**XIV mövzu: Qəhrəmanlıq dastanlarının poetikası – 2 saat**

Dastan poetikasının onun strukturundakı nəsr-nəzm növləşməsindən irəli gələn spesifikliyi.

«Kitabi-Dədə Qorqud» dastanının poetik özəlliklərinin dilin səviyyələri üzrə – fonetik, leksik, morfoloji, sintaktik müstəvilərdə araşdırılması. «Kitabi-Dədə Qorqud»un poetikası üçün zəruri kateqoriyalar: təkrarlar sistemi, sıralanma, metafora, bədii müqayisə (təşbeh), metonimiya, bədii təyin, xitab, paralelizm.

«Kitabi-Dədə Qorqud»un ritm və intonasiya özəllikləri, təkrarlar sistemi ilə üzvi əlaqəsi. «Kitabi-Dədə Qorqud» ritminin türklərin hərəkətlə bağlı həyat tərzi, dinamik təbiəti ilə səsləşməsi.

Qədim türk şeirindəki alliterasiya-təkrar sisteminin fonetik səviyyədə ifadəsi kimi. «Kitabi-Dədə Qorqud» dilində həm xarici, həm də daxili alliterasiya. Alliterasiya - «Kitabi-Dədə Qorqud»un poetik sisteminin aparıcı vahidlərindən biri kimi.

«Kitabi-Dədə Qorqud»un poetik leksikasında metafora və müqayisələr. Metafora «Kitabi-Dədə Qorqud» dilinin vacib üslubi-poetik ünsürü kimi. «Kitabi-Dədə Qorqud»un dilində emprik-təcrübi xarakter daşıyan müqayisələrin (bənzətmə, təşbeh) əski Oğuz həyatı ilə bağlılığı.

Poetik sintaksis baxımından «Kitabi-Dədə Qorqud»un araşdırılması. «Kitabi-Dədə Qorqud» dilində bədii təyinlər. Bədii xitab. Sadə və mürəkkəb xitablar. Dastanların daha çox «xanım hey!» müraciəti ilə başlanması.

«Kitabi-Dədə Qorqud» poetik sistemində sintaktik paralelizmin bütün növləri: dil-nitq normativ-üslubi paralelizmi»; cümlədaxili-mətndaxili paralelizm; tam-yarımçıq paralelizm; ortaq sözlü-ortaq sözsüz paralelizm; düz-əks paralelizm.

«Kitabi-Dədə Qorqud» şeirinin özünəməxsusluğu. Ritm-intonasiya rəngarəngliyi; alliterasiya, assonans, qafiyə, anafora, epifora və s. poetik kateqoriyaların sintaktik paralelizmlə üzvi şəkildə bağlılığı.

«Koroğlu dastanında epik ənənənin davamı. «Koroğlu»nun ideya məzmun özəllikləri. Dastanın forma-struktur xüsusiyyətləri. «Koroğlu» dastanında işlənmiş beynəlxalq süjet və motivlər (ata-

oğul qarşıdurması; gözlərin çıxarılması; qız ardınca getmə; oğulluğa götürmə; əfsanəvi at; qeyri-adi qılınc; əsir düşmə və s.) Dastanın təhkiyə əlamətləri. Stilistik formullar. «Koroğlu» dastanında müqayisə, metafora, epitet. «Koroğlu»da hiperbola bədii priyomu. Dastanda atalar sözü və məsəllərin yeri. «Koroğlu» dastanındakı şeirlərin kompozisiya xüsusiyyətləri. Bölgü, təkrarlar, anafora.

[3], [7], [8], [19], [20], [21], [25], [28], [29].

**XV mövzu: Məhəbbət dastanlarının poetikası – 2 saat**

Məhəbbət dastanlarının struktur elementləri (ustadnamə, dastanın mətni, duvaqqapma, yaxud cahannamə) arasında dərin məntiqi bağlılığın olması. Bu baxımdan dastanın bütövlüyü. Ustadnamədə deyilən kəlamların süjetdə öz təsdiqini tapması və yekunda deyilən şeirlə bir daha təsbit edilib yekunlaşdırılması. Süjetin 4 mərhələsi.

Məhəbbət dastanlarındakı şeirlərin poetik üslubi özəllikləri. Məhəbbət dastanlarında epik təsəvvürlərin nağıl təhkiyəsinə məxsus nəqletmə prinsipi. Məhəbbət dastanlarının janrın tələbinə uyğun formal texniki biçimli, orijinal poetik-üslubi keyfiyyətləri, struktur-semantik və bədii xüsusiyyətləri.

Məhəbbət dastanlarında fikrin obrazlı şəkildə deyilməsində təsvir və ifadə vasitələrinin yeri. Məhəbbət dastanlarında emosional duyğularla bağlı motivlərin poetik ifadəsi zamanı epitet, bənzətmə və metaforalara müraciət. Dastanlarda mübaliğələr daha çox deyişmələrdə, qarşı-qarşıya dayanan, bir-birilə şeirləşən qəhrəmanların öyülməsində tutarlı vasitə kimi.

Dastan şeirlərinin dilində alqış-dua, and və qarğışların yeri. Dastan poetikasında qoşma, gəraylı, ustadnamə, təcnis, divani və müxəmməs. Məhəbbət dastanlarındakı şeirlərdə obrazlılığa, fikrin poetik ifadəsinə xüsusi diqqət yetirilməsi. Formal texniki tərəflərə – qafiyə, rədif, bölgü, cinas sisteminin sərrastlığı və dolğunluğuna fikir verilməsi.

Məhəbbət dastanlarının struktur-semantik və bədii sisteminin bütöv kompleksinin araşdırılması xalqımızın bağlı olduğu

tarixi-mənəvi qaynaqların tədqiqində, onun milli mənşəyinin etnik-mifoloji, məkan və zaman baxımından öyrənilməsində xüsusi əhəmiyyətə malik məsələ kimi.

[6], [9], [18], [27].

## Seminar mövzuları: (15 saat)

**I məşğələ:** Poetika və onun sahələri. Bu yöndə ilk tədqiqatlar. Azərbaycanda poetika istiqamətində görülən işlər – 2 saat

**II məşğələ:** Xalq poeziyasının və folklor süjetlərinin spesifikliyi – 2 saat

**III məşğələ**: Folklor təhkiyəsinin əsas xüsusiyyətləri (üslub, obrazlılıq, ənənəvilik, improvizasiya) – 2 saat

**IV məşğələ:** Folklorda xronotop anlayışı və onun təzahürləri – 2 saat

**V məşğələ:** Ağız ədəbiyyatının sinkretizm xüsusiyyəti və onun səviyyələri – 2 saat

**VI məşğələ:** Bayatılarda və aşıq şeirində istifadə olunan poetik vasitələr. Mif, atalar sözləri, məsəllər və lətifələrin poetikası – 2 saat

**VII məşğələ:** Nağılların poetikası. «Kitabi-Dədə Qorqud» və «Koroğlu» dastanlarının poetik sistemi – 2 saat

**VIII məşğələ:** Məhəbbət dastanlarının poetik xüsusiyyətləri – 1 saat

**Sərbəst (fərdi) işlərin mövzuları**

1. Poetika və onun sahələri.
2. Poetika elminin yaranma tarixi və onun əsas nümayəndələri.
3. Xalq poeziyasının özünəməxsusluğu.
4. Folklor süjetlərinin ənənəviliyi.
5. Folklor təhkiyəsində üslub, obrazlılıq və ənənəvilik.
6. Folklor təhkiyəsində improvizasiya və onun sərhədləri.
7. Folklor janrlarında zaman və məkan əlamətlərinin təzahürü.
8. Kontaminasiya – nağılyaradıcı üsullardan biri kimi.
9. Sinkretizmin müxtəlif səviyyələrinin folklorda ifadəsi.
10. Nitqdə stereotiplik anlayışı.

## Əsas ədəbiyyat
## (Azərbaycan dilində)


1. Azərbaycan ədəbiyyatının tarixi poetikası. I kitab. Bakı: Elm, 1989, 420 s.
2. Azərbaycan ədəbiyyatının tarixi poetikası. II kitab. Bakı: Elm, 2006, 496 s.
3. Abdulla B. «Kitabi-Dədə Qorqud»un poetikası. Bakı: Elm, 1999, 224 s.
4. Aristotel. Poetika. Bakı: Azərnəşr, 1974, 192 s.
5. Bualo. Poeziya sənəti. Bakı: Azərnəşr, 1969, 182 s.
6. Cəfərli M. Azərbaycan məhəbbət dastanlarının poetikası. Bakı: Elm, 2000, 264 s.
7. Cəfərov N. «Koroğlu»nun poetikası. Bakı: BDU-nun nəşri, 1997, 25 s.
8. Dəmirçizadə Ə.M. «Kitabi-Dədə Qorqud» dastanlarının dili. Bakı: APİ-nin nəşri, 1959, 160 s.
9. Əfəndiyev P.Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Elm və Təhsil, 2013, 600 s.
10. Əliyev O. Nağılların poetikası. Bakı: Səda, 2001, 192 s.
11. Əlizadə Z. Azərbaycan atalar sözü və zərb məsəllərinin leksik-semantik xüsusiyyətləri. Bakı: ADU-nun nəşri, 1980, 107 s.
12. Fərzəliyev T. Azərbaycan xalq lətifələri. Bakı: Elm, 1971, 122 s.
13. Hacılı A. Bayatı poetikası. Bakı: Elm, 2000, 162 s.
14. Hüseynoğlu K. Azərbaycan şeir mədəniyyəti. Bakı: Ozan, 1996, 88 s.
15. İbrahimov İ. Atalar sözü və məsəllər// «Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. I c.Bakı: Elm,1961
16. İsgəndərova V. Ənənəvi nağıl formulları. Bakı: Elm və Təhsil, 2014, 202 s.
17. Kazımoğlu M. Gülüşün arxaik kökləri. Bakı: Elm, 2005, 186 s.
18. Kazımov Q. Qurbani və onun poetikası. Bakı: APİ-nin nəşri, 1996, 200 s.
19. Koroğlu X.Q. Oğuz qəhrəmanlıq eposu. Bakı: Yurd, 1999, 243 s.
20. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. I kitab. Bakı: Apostroff, 2014, 591 s.
21. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. II kitab. Bakı: Apostroff, 2014, 658 s.

22. Orucov T. Qaravəlli janrının poetikası. Bakı: Nurlan, 2009, 200 s.
23. Rzasoy S. Oğuz mifinin paradiqmaları. Bakı: Səda, 2004, 200 s.
24. Talıblı E. Şəki lətifələrinin qaynaqları və təşəkkülü haqqında// Folklorşünaslıq məsələləri, IV buraxılış, Bakı: BDU-nun nəşri, 1999, s.37-44
25. Vəliyev K. Dastan poetikası. Bakı: Yazıçı, 1984, 223 s.

**Əlavə ədəbiyyat**
**(Rus dilində)**

26. Аникин В.П. Теория фольклора. Москва: КДУ, 2004, 431 с.
27. Фрейденберг О.М. Поэтика сюжета и жанра. Москва: Лабиринт, 1997, 448 с.
28. Жирмунский В.М. Тюркский героический эпос. Ленинград: Наука Лен.отд., 1974, 727 с.
29. Короглы Х.Г., Набиев А.М. Азербайджанский героический эпос. Баку: Язычы, 1996, 306 с.
30. Краткая литературная энциклопедия. В 9 томах. Москва: Советская энциклопедия, 1968
31. Литературный энциклопедический словарь. Москва: Советская энциклопедия, 1987, 752 с.
32. Мелетинский Е.М. Поэтика мифа. Москва: Наука,1976, 407 с.
33. Пермяков Г.Л. Пословицы и поговорки народов Востока. Москва: Книжный дом «ЛИБРОКОМ», 2015, 671 с.
34. Пермяков Г.Л. Основы структурной паремиологии. Исследования по фольклору и мифологии Востока. Москва: Наука, 1988, , 235 с.
35. Пропп В.Я. Морфология сказки. Москва: Наука, 1969, 168 с.
36. Пропп В.Я. Исторические корни волшебной сказки. Ленинград: Изд. Ленинградского Университета, 1986, 365 с.
37. Веселовский А.Н. Историческая поэтика. Ленинград: Художественная литература, 1940, 648 с.